# Artyom BAKONİN:

# "Azərbaycan ölkəmizin, şəhərimizin başlıca tərəfdaşlarından biridir"



**Xəbər verildiyi kimi, əsas mövzusu "Çoxqütblü dünyanın yeni inkişaf nöqtələrinin formalaşması" olan 27-ci Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu (SPBİF) işini başa çatdırıb. 139 ölkədən 18 minə yaxın insanın - nümayəndə heyətləri və media təmsilçilərinin iştirak etdikləri tədbirin işini "Azərbaycan" qəzetinin əməkdaşı da işıqlandırıb. Onun növbəti müsahibi tanınmış rusiyalı hüquqşünas və vəkil Artyom Bakonindir.**

*- Forumla bağlı təəssüratlarınız necədir? O, əvvəlkindən nə ilə fərqlənir?*

- Deyə bilərəm ki, SPBİF son iki illə müqayisədə daha məhsuldar olub. Düşünürəm ki, bu, forum iştirakçılarının, ilk növbədə belə platformaya alışması ilə bağlıdır. İştirakçılar burada keçirdikləri vaxta daha səmərəli yanaşmağa başlayıblar. Artıq daha çox insan virtual müqavilələri müzakirə etməklə yanaşı, həm də kontraktlar bağlayır və bu, çox müsbət əlamətdir.

*- Mövzular və maraqlı panel sessiyaları haqqında nə deyə bilərsiniz?*

- Bəli, sessiyalar çox idi. İdmandan tutmuş ağciyər xərçəngi ilə mübarizəyə qədər mövzular ətrafında müzakirələr aparılıb. İqtisadi baxımdan bu da mənə çox vacib görünür, çünki iqtisadiyyat öz yerində, lakin sağlam həyat tərzinin inkişafı və ağciyər xərçəngi ilə mübarizə də son dərəcə əhəmiyyətlidir. Və bu, təqdirəlayiqdir.

*- Təşkilatçılıq səviyyəsi necə idi?*

- Hesab edirəm ki, gözləniləndən daha çox insanın gəldiyini nəzərə alsaq, təşkilatçılar belə axının öhdəsindən çox yaxşı gəliblər. Təhlükəsizlik yüksək səviyyədə idi. Bu bizi sevindirməyə bilməz. Foruma yaxınlaşanda telefonlar belə işləmirdi.

*- Azərbaycan bu forumda necə iştirak etdi? Ümumiyyətlə, ölkəmiz haqqında nə deyə bilərsiniz?*

- Onu deyə bilərəm ki, Azərbaycan bu mötəbər tədbirdə layiqincə təmsil olundu. Ümumiyyətlə, ölkəniz Rusiyanın sosial və işgüzar həyatının bir çox aspektlərinə nüfuz edir. Azərbaycan ölkəmizin, şəhərimizin başlıca tərəfdaşlarından biridir. Və biz buna inanılmaz dərəcədə şadıq. Təbii ki, Azərbaycan və Rusiya strateji müttəfiqlərdir.

İqtisadi sahədə də əlaqələr genişləndirilməlidir. Birincisi, biz onları genişləndiririk, ikincisi, bu cür kommunikasiyalar olmadan, iqtisadiyyat sahəsində nəyisə həyata keçirmək çətindir, çünki fikrimcə, hər şey münasibətlərdən başlayır. Əgər münasibət, ünsiyyət yaxındırsa, hətta qardaşlıq səviyyəsindədirsə, onda hansı problemlərdən danışa bilərik? Azərbaycanla münasibətlər ən yüksək səviyyədədir.

**_Elçin VƏLİYEV,_**
**_"Azərbaycan"_**

*Sankt-Peterburq*

Azərbaycan.- 2024.- 11 iyun, № 122.- S.7.